

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 168 (24.055)

*6 sentyabr 2022-ci il, çərşənbə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 3-də Dünya və Avropa Karate Federasiyasının prezidenti Antonio Espinosu qəbul edib.

Söhbət zamanı Azərbaycanda idmanın bütün növlərinə, o cümlədən karate növünə dövlət səviyyəsində dəstək göstərildiyi və ölkəmizin idman sahəsində əldə etdiyi nailiyyətlər qeyd olunub. Karateçilərimizin nüfuzlu beynəlxalq idman yarışlarında, xüsusilə olimpiya oyunlarında qazandığı uğurlar vurğulanıb.

Görüşdə Bakıda keçirilən Dünya Karate Federasiyasının ən nüfuzlu yarışı olan Karate1 Premyer Liqa turnirinin əhəmiyyətindən söhbət açılıb. Bildirilib ki, bu turnirin keçirilməsi ölkəmizin mühüm beynəlxalq idman tədbirlərinə yüksək səviyyədə ev sahibliyi etməsini bir daha göstərir.

Dövlətimizin başçısı Antonio Espinosa Azərbaycan Karate Federasiyasının fəaliyyətinə verdiyi dəstəyə görə minnətdarlığını bildirib.

Söhbət zamanı ölkəmizdə idmanın bu növünə çox sayda gənclərin və uşaqların böyük marağının olduğu məmnunluqla vurğulanıb.

## Muxtar respublikada bank sektorunun davamlı inkişafı təmin olunub



*Muxtar respublikanın sosial-iqtisadi həyatında, makroiqtisadi sabitliyin qorunmasında böyük rola malik olan bank sektorunun inkişafı diqqət mərkəzində saxlanılır. Daim dövlət qayğısı ilə əhatə olunan bank fəaliyyətinin stimullaşdırılması istiqamətində davamlı tədbirlər həyata keçirilir, yeni bank və filiallar yaradılır, maddi-texniki baza gücləndirilir.*

1 avqust 2022-ci il tarixə muxtar respublikada fəaliyyət göstərən 23 bank strukturu mövcud olmuşdur ki, bunun da 20-si bank və bank filialları, 2-si bank olmayan kredit təşkilatı, 1-i isə kredit ittifaqıdır.

Muxtar respublikanın banklarında kreditlər, əmanətlər, hesablaşma və kassa xidmətləri, təcili pul köçürmələri, bankomat, ödəniş terminalları, POS-terminal, ödəniş kartları, lizinq əməliyyatları, müştəri ödənişlərinin idarəetmə sistemi, kommunal xidmətlər, internet bankçılıq, mobil bankçılıq, SMS bankçılıq, 3D Secure, xarici valyuta mübadiləsi xidmətləri aparılır.

Azərbaycan Respublikasının ilk regional bankı olan "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyəti 2008-ci il 11 sentyabr tarixdə fəaliyyətə başlamışdır. Milli və beynəlxalq banklararası ödəniş sistemlərinin üzvü olan bankın Bakı şəhərində filial, şöbə və mübadilə şöbəsi, Naxçıvan şəhərində filial və mübadilə şöbəsi, Şərur, Ordubad, Culfa, Kəngərli və Şahbuz rayonlarında filialları fəaliyyət göstərir.

Muxtar respublikada əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsinin yüksəldilməsi istiqamətində təkcə 2020-ci ildən ötən dövr ərzində "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Şərur, Kəngərli və Şahbuz rayon filiallarının, Kapital Bankın Ordubad filialının inzibati binalarının tikintisi başa çatdırılmış, "Naxçıvanbank" Açıq Səhmdar Cəmiyyətinin Culfa rayon filialının inzibati binasının tikintisi davam etdirilmişdir.

Aktivlərinin həcminə görə ölkənin aparıcı 5 bankından biri olan "Bank Respublika" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan şəhərində yeni filialının cari ilin iyun ayında fəaliyyətə başlaması muxtar respublikada sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə, real sektorun, xüsusən də kənd təsərrüfatının inkişafına, eləcə də vətəndaşların maliyyə imkanlarına əlçatanlığının təmin olunmasına müsbət təsir göstərməkdədir.

2022-ci ilin yanvar-iyul aylarında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 165 milyon 65 min 500 manat məbləğində kreditlər verilmişdir ki, bu da 2018-ci ilin müvafiq dövründəki göstəricidən 5,4 dəfə çoxdur.

*Yanvar-iyul ayları üzrə iqtisadiyyata kredit qoyuluşu, min manat*




Cari ilin 7 ayında verilmiş kreditlərin 13 milyon 650 min 100 manatı və yaxud 8,3 faizi qısamüddətli, 151 milyon 415 min 400 manatı və yaxud 91,7 faizi uzunmüddətli kreditlər olmuşdur.

Cari ilin ötən dövründə ümumi kreditlərin 28 milyon 64 min 600 manatı sahibkarlıq subyektlərinə verilmişdir ki, bunun da 11 milyon 84 min 500 manatı yeni istehsal sahələrinin yaradılmasına və ya genişləndirilməsinə, 16 milyon 980 min 100 manatı isə fərdi sahibkarlığın inkişafına sərf olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən təsdiq edilmiş 2013-2015-ci illəri əhatə edən "Naxçıvan Muxtar Respublikasında elektron ödəniş məkanının formalaşdırılması və nağdsız hesablaşmaların həcminin artırılması" üzrə Tədbirlər Planının, "2016-2018-ci illərdə Naxçıvan Muxtar Respublikasında müasir elektron ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın uğurlu icrası maliyyə sabitliyinin və ümumi inkişafın təminatında mühüm rol oynayıb.

İcrası uğurla davam etdirilən "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin



tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"a uyğun olaraq görülən işlərin nəticəsidir ki, nağdsız ödənişlərin həcmi 2018-ci ilin yanvar-iyul aylarında 21 milyon 200 min 476 manat olduğu halda, 2022-ci ilin müvafiq dövründə bu göstərici 105 milyon 171 min 668 manat təşkil etmişdir. Cari ilin yanvar-iyul aylarında nağdsız ödənişlərin həcmi bir il öncəyə nisbətən 59,8 faiz artmışdır.

1 avqust 2022-ci il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 213846-ya çatmışdır ki, bunun da 206144-ü və ya 96,4 faizi aktiv hesablardır. 1 avqust 2018-ci il tarixə isə açılmış bank hesablarının sayı 75401, aktiv hesabların sayı isə 66338 vahid təşkil etmişdir.

1 avqust 2022-ci il tarixə muxtar respublikada quraşdırılmış POS-terminalların sayı 1598 olmuşdur ki, bu da 1 avqust 2018-ci il tarixə olan göstəricidən 329 vahid çoxdur.

Muxtar respublikada bank sektorunda əldə olunmuş uğurlu nəticə kimi 2022-ci ilin yanvar-iyul aylarında dövriyyəyə buraxılan pul kütləsi ilə bankların kassalarına daxil olan pul kütləsi arasında fərq azalmış, məxaricdə emissiyanın xüsusi çəkisi 13,4 faiz təşkil etmişdir. Bu göstərici 2018-ci ilin yanvar-iyul aylarında isə 30 faiz olmuşdur.

1 avqust 2022-ci il tarixə muxtar respublika ərazisində fəaliyyət göstərən bank strukturlarında 13 milyon 167 min 900 manat əhali əmanəti mövcud olmuşdur ki, bu da 1 avqust 2018-ci il tarixə olan göstəricidən 94,6 faiz çoxdur.

Bank sektoru üzrə həyata keçirilən tədbirlərin davamlılığı iqtisadiyyatın daha da gücləndirilməsinə və davamlı inkişafın qorunub saxlanılmasına, əhaliyə göstərilən bank xidmətlərinin səviyyəsinin yüksəldilməsinə əlverişli şərait yaradır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

## Musiqi təhsili müəssisələrinə növbəti işə qəbul imtahanları keçirilib



Müsabiqəyə çıxarılmış 70 vakant vəzifənin tutulması üçün 91 namizəd qeydiyyatdan keçib. Ən çox vakant vəzifənin (26) Şərur Rayon Mədəniyyət İdarəsi üzrə çıxarıldığı imtahanda daha sıx müsabiqə vəziyyəti konsertmeyster-fortepiano (27), kamança (13) və tar (13) ixtisasları üzrə olub.

Ayrılmış 75 dəqiqə vaxt çərçivəsində hər bir namizədə müəssisələrdə tədris olunan ixtisaslar üzrə 50 test tapşırığı təqdim edilib. Test tapşırıqlarının 60 faizini (30 bal) düzgün cavablandırmış namizədlər keçid balını toplamış hesab edilir və müsahibə mərhələsinə buraxılır. İmtahanın nəticəsi "Test imtahanının nəticəsi haqqında arayış"la rəsmiləşdirilir.

Test imtahanının nəticələrinə görə imtahanda iştirak edən 90 namizəddən 54-ü keçid balını toplayaraq növbəti mərhələdə iştirak etmək hüququ qazanıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Şum qaldırılması sürətlə davam etdirilir



Muxtar respublikamızın ən böyük rayonlarından biri olan Şərurda cari təsərrüfat ilinin ötən dövrü bir sıra uğurlu nəticələrlə başa çatıb. Qeyd edək ki, bu bölgə əkinçilik üçün münbit torpaqlara malikdir. Rayonun zəhmət adamları hər il müxtəlif əkinçilik sahələri ilə məşğul olurlar. Bu sahələr içərisində taxılçılıq öndə dayanır. Ötən ilin payızında və cari ilin yazında rayonda 4038 hektar sahə taxıl üçün ayrılmışdı. Mövsüm ərzində bütün aqrotexniki tədbirlərə vaxtlıvaxtında əməl edən taxılçıların zəhməti hədər getməmiş, onlar 16484 ton məhsula sahib olmuşlar. Bu da vurğulanmalıdır ki, muxtar respublika üzrə ən yüksək məhsuldarlıq məhz Şərur rayonuna məxsusdur: 40,8 sentner. Təbii ki, belə yüksək nəticə torpaq mülkiyyətçilərinə xeyli qazanc gətirib. Bundan ruhlanan taxılçılar yenidən sahələrə çıxaraq gələn ilin bol məhsulunun əsasını qoymağa hazırlaşırlar. Belə ki, taxıl əkiləcək sahələrdə şum qaldırılmasına başlanılıb. Rayon İcra Hakimiyyətindən aldığımız məlumata görə, 1750 hektar sahədə şum aparılır.

Şum qaldırılmasında istifadə edilən texnikalara əvvəlcədən baxış keçirilib, mövsümü vaxtında başa vurmaq üçün kifayət qədər yanacaq və ehtiyat hissələri əldə olunub.

**Xəbərlər şöbəsi**

*Elə ki, ilin bu dövrləri təqvimə qədəm qoydu, yay fəsli də öz köçünü toplayıb arandan yaylağa doğru yol almağa hazırlaşır, bir qədər sonra havada qızıl payızın sərin mehi duyulacaq, yavaş-yavaş saralmış yarpaqlar yerini qarlı qışa vermək üçün budaqlardan ahəstəcə yerə töküləcək. Hər fəslin qayğıları var... Artıq bizimlə nəfəs-nəfəsə dayanan payız fəslində isə qayğılar bir az da artacaq, qış üçün tədarük görüləcək, mal-qara üçün ot-alaflar qalaqlanacaq, arıçılar növbəti ildə də məhsuldarlığın yüksək olması üçün profilaktik tədbirlər həyata keçirəcək, bir sözlə, elimiz qarlı qışı yaxşı yola vermək üçün canla-başla çalışacaq.*

Ailə təsərrüfatlarımız

## Dağlardan süfrələrimizə əvəzsiz can dərmanı – Naxçıvan balı

*Salam, a gədiklər, salam, a dağlar!*
*Yenə boynunuzu qucmaq istərəm.*
*Alıb küləyini qoluma, dağlar,*
*Zirvədən-zirvəyə uçmaq istərəm.*

Yolumu hər fəsildə gözəl olan Batabat yaylağından salıram. Bu el-obanı gəzib görənlər yaxşı bilirlər ki, Naxçıvanın baharı, yayı gözəl olduğu kimi, payızının, qışının da öz yeri, öz məqamı var. Artıq neçə müddətdir ki, Batabatda biçin işləri yekunlaşıb, təbiətin yaşıl örtüyü yerini qızıl payızın zövqoxşayan rənglərinə verməkdədir. Amma hələ də Batabatı görməyə gələn qonaqların, orada dincəlməyə üz tutanların sayı-hesabı saymaqla bitmir, elə təbiətin qoynunda öz halal ruzisini qazanıb süfrələrimizə təmiz Naxçıvan balı gətirən təsərrüfatçıların da. Belə zəhmətsevərlərdən biri də mənim uzun illərdir ki, tandığım, yaşı 60-ı ötmüş ***Əkbər*** dayıdır. Qocaman arıçı yüzə yaxın arı ailəsinə qulluq edir. Halal zəhmətlə çörəyini qazanan Əkbər dayı deyir ki, muxtar diyarımızın ərazisi arıçılığın inkişafı üçün yüksək təbii şəraitə malikdir. Həmçinin yurdumuzun faydalı bitki örtüyü də yüksəkkeyfiyyətli balın hasil olunması üçün zəruri şərait yaradır. Erkən yaz dövründən başlayaraq arıçıların, necə deyərlər, qayğılı günləri də başlayır. Arıçılıq xüsusi diqqət tələb edən işdir, hər arı ailəsinə gərək ayrıca qulluq edəsən. Nə qədər yaxşı qulluq olarsa, məhsul da bir o qədər yaxşı olar.

Əkbər dayı illərdir, qazandığı təcrübəyə söykənərək arıçılığın “qızıl” qaydalarından da söhbət açır: İl ərzində arıçılıqda görülən işlər 4 dövrə bölünür: erkən yaz, beçə, bal və ya məhsul dövrləri, nəhayət, qış dövrü. Qışlama dövrünü yaxşı keçirən, yaxşı qidalanan arı ailəsi ili daha yaxşı yola verir, nisbətən zəif qidalanmış ailələr isə tez xəstəliyə tutulur və böyük bir qismi tələf olur. Xəstəliyə tutulmuş arıları yuvadan ayrılmazdan əvvəl mütləq müayinə etmək, zəif düşmüş arı ailələrinin qidalanmaları üçün pətəklərinə ballı çərçivəli şam qoymaq lazımdır. Əgər ehtiyat bal yoxdursa, yem tələbatını şəkər şərbəti ilə də tamamlamaq olar. Onu da deyim ki, arıların



normal qidalanmaması, bölgələrdə arı ziyanvericilərinin çoxalması, xəstəliklərin geniş yayılması, dəyişən iqlim şəraiti onların sayının azalmasına, yəni məhvinə səbəb ola bilir. Bu səbəbdən arıçılar arı ailələrini rahat hərəkəti təmin edəcək, su və bitki ehtiyatı ilə zəngin olan yerlərdə yerləşdirməlidirlər.

Arıçı deyir ki, arıçılıqda məhsul istehsalına müsbət təsir edən əsas amillərdən biri erkən yaz dövründə arı ailələrinə qulluğun düzgün aparılmasıdır. Ona görə də yaz yoxlanışı zamanı arı xəstəliklərinin olub-olmamasına nəzarət etmək lazımdır. Buna diqqət göstərilməməsi arı ailələrinin məhv olmasına gətirib çıxarır və xəstəlik səbəbindən zəifləmiş ailələrdə məhsuldarlıq xeyli aşağı düşür. Xüsusən erkən yazda bir arı ailəsinin həyatda qalması üçün ana arının olması vacibdir. Əgər arılar sürətli bir şəkildə çalışıb sürfəyə çiçək tozu gətirirlərsə, bu, ana arının varlığına işarədir. Yox, əgər arılar çiçək tozu gətirmir və pətəkdən qıraqda gəzirsə, böyük ehtimalla ana arı tələf olub. Bu da istər arıların bir pətəkdə cəmlənməsinə, istərsə də, ümumiyyətlə, bütün arı ailələrinin məhsuldarlığının keyfiyyətinə zərbə vuran əsas amildir. Bəzən bu işə yenicə başlamış arıçılar sadaladığımız qaydaları diqqətə almırlar, nəticədə, ya yaxşı məhsulun hasil olmamasından şikayətlənir, ya da öz təcrübəsizliklərinin bu işə əl vermədiyini düşünürlər.

Əkbər Əsgərov deyir ki, erkən yaz dövrü başa çatdıqdan sonra may ayından etibarən arıçılıqda “beçə dövrü”, “beçə ayı”, “pətək ayı” kimi tanınan yeni mərhələ başlayır. Bu aydan etibarən arılar çiçək tozundan (güləm) şirə, nektar gətirməyə başlayır. Təcrübəli arıçılar söyləyirlər ki, may ayında arılar alaqaranlıqdan hava isinənə qədər güləm, bundan sonra isə şirə gətirir. Bu zaman bütün yuvalarda qızğın iş prosesi gedir. Ana arı dayanmadan yeni pətəklər toxuyur, həmin pətəklərin gözcüklərinə sürfələr qoyur. Bu sürfələrdən yekə gözcüklərdə olanlardan erkək arılar, normal gözcüklərdən isə işçi arılar çıxır. Daha böyük bir neçə gözcüklər də olur ki, bunlardan da ana arılar çıxır. Yeni çıxan ana arılar özü ilə bir dəstə arı götürərək yeşikdən ayrılır ki, buna “beçə” deyirlər. Bir beçə dəstəsində 4-5 ana arı olur. Sonradan arılar seçib birini saxlayır, qalanlarını isə öldürürlər. Bu ona görə olur ki, ən canlı-cüssəli, işlək beçə arılar tərəfindən, necə deyərlər, qiymətli hesab olunur. Xəstə, cılız beçələr isə həm bal istehsalının zəifləməsinə mənfi təsir göstərir, həm də pətəklərdəki iş prosesinə mane olur. Bəzən elə olur ki, yeşikdən çıxan beçə yaxınlıqdakı ağacın, kol-kosun üstünə düşür. Bir-iki saat ərzində beçə tutulub yeşiyə, səbətə salınmazsa, uçub hara gəldi gedəcək. Bəzən də elə olur ki, beçə yaxınlıqda olan arıçıların qoyduğu yeşiyə girib orada özünə məskən salır. Bu zaman da onu pətəklərə (yuvaya) qaytarmaq çətin olur.

Əkbər dayı deyir ki, yağıntının bolluğu da beçələməyə müsbət təsir göstərir. Bu səbəbdən arıları tez-tez dağlıq ərazilərə – Batabata aparıram. Çünki Batabat dağlıq ərazidə yerləşdiyi üçün ilboyu kifayət qədər yağıntı olur. Yağıntılı illərdə gül-çiçəyin bolluğunda arı üç dəfə beçə verə bilər. Onlar da sırası ilə “şahbeçə”, “ortabeçə” və “xorabeçə” adlanır.

Müsahibimiz arıların qışa hazırlıq prosesindən də danışdı: – Arı ailələrinin qışa hazırlanması erkən yaz və yay dövrlərindən başlayır. Belə ki, köhnə, qaralmış və kiflənmiş şamlar yeşiklərdən çıxarılır və yenisi ilə əvəz olunur. Bununla yanaşı, arıların xəstəliyə tutulmaması üçün yem ehtiyatı tədarük edilir, ana arılar



dəyişdirilərək arı ailələri qüvvətləndirilir, həmçinin iqlimi sərt, soyuq keçən yerlərdə arıların qışlaması üçün nəzərdə tutulmuş binalarda mümkün istilik şəraiti yaradılır.

Keyfiyyətli və təmiz Naxçıvan balı necə olur? – sualına isə müsahibimiz belə cavab verir:

– Məmləkətimizin təmiz dağ havası, birbirindən faydalı, xoşətirli bitkiləri şərait yaradır ki, böyük zəhmətlə ərsəyə gətirdiyimiz balımız da bu yerlərin adına, sanına yaraşın, necə deyərlər, adı dillər əzbəri olan Naxçıvan balı olsun. Təmiz balın ətri də, dadı da ilk baxışdan insanı özünə cəlb edir. Əslində, təmiz balı tanımaq üçün konkret olaraq heç bir metod yoxdur. Söylənənlərin, yazılanların hamısı aldadıcı metodlardır. Bəziləri iddia edir ki, rəngi ağımtıl olan, kənarları tez xarlayan bal saxta baldır, bəzi vasitələrdən, arıçılqlardan istifadə olunub. Bəziləri də deyir ki, rəngi açıq, şəffaf, az qatı olan bal əsl təmiz bal hesab olunur. Lakin illərdir, bu işdə qazandığım təcrübəyə əsasən deyə bilərəm ki, xüsusi laboratoriyadan başqa heç bir insan balın təmizliyini dəqiqliyi ilə söyləyə bilməz. Çünki balın tərkibi çox mürəkkəbdir və bu tərkibi hansısa elementar üsulla ortaya çıxarmaq olmaz. Laboratoriyadan başqa, əgər alıcı arıçıya inanırsa, güvənirsə bunu da ikinci metod saymaq olar. Yaxşı olar ki, hər bir arıçı, təsərrüfatçı əlini öz vicdanına qoyaraq halal ruzisini qazansın, minnətsiz çörəyin ləzzətini dadsın. Digər tərəfdən də mən hesab edirəm ki, adı dillərdə deyilən, diyarımızın hüdudlarından kənarda da sevilən, seçilən Naxçıvan balının adını, şöhrətini qorumaq gərək hər bir arıçının peşə amalı olsun.

Biz də başda Əkbər dayı olmaqla bütün zəhmət adamlarına halal qazanc arzu edir, işlərində uğurlar arzulayırıq.

✍ Məcid RƏŞADƏTOĞLU

*Ulu ozanımız Dədə Qorqud deyirdi ki, torpağı qorumasan, əkib-becərməyə, əkib-becərməsən, qorumağa dəyməz. Bəli, torpağı qorumaq da, əkib-becərmək də böyük vətənpərvərlik nümunəsidir. Ona axıdılan tər, zəhmət insana yalnız xeyir-bərəkət gətirir...*

## Adı və dadı ilə tanınan Üstüpü kələmi

Tərəvəz bitkiləri arasında əsas yerlərdən birini tutan kələm muxtar respublikamızda geniş sahələrdə əkilib-becərilir. Bunu şərtləndirən əsas amillərdən biri torpaq-iqlim şəraitinin əlverişli olmasıdır. Kələm yetişdirmək sahəsində Ordubad rayonunun Üstüpü kəndi, xüsusilə seçilir. Bu gün bazarda Üstüpü kələmi adla tanınır və satılır. Culfa-Ordubad magistral yolundan Düylün, Çənnəb, Üstüpü kəndlərinə yol ayrılır. Havası, suyu təmiz olan Üstüpünün insanları da zəhmətkeşdirlər. Bu kənd dövlətin qayğısı ilə müasirləşdirilib, kənd və xidmət mərkəzləri, təhsil ocağı, həkim ambulatoriyası istifadəyə verilib. Barlı-bərəkətli torpaqları olan Üstüpü kəndində əhali daha çox kartofçuluq, arıçılıq, bostançılıqla məşğul olur.

Bostançılıq sahəsində peşəkarlaşan Üstüpü camaatının yetişdirdikləri kələm nəinki Naxçıvanda, ondan kənarda da tanınır. Turac Oruclu, Ülvi Məmmədli, Məhəmməd Fərzəliyev kimi təsərrüfatçılar onu əkib-becərir, yaxşı gəlir əldə edirlər. Belə təsərrüfatçılar içərisində hələ cavan olmasına baxmayaraq, təsərrüfat sahəsində böyük təcrübəyə malik sahibkar ***Ziyad Kərimov,*** xüsusilə seçilir. 1985-ci ildə Üstüpü kəndində anadan olan müsahibim deyir: – Yaşadığımız yer kənd təsərrüfatı üçün əlverişli iqlimə malikdir. Uşaqlıqdan təsərrüfatla məşğuluq. Lakin 10 ildir ki, kələm əkib-becərməyə daha çox üstünlük verirəm, həmçinin kartof, lobya da təsərrüfatımıza xeyli gəlir gətirir. Bir neçə il olar ki, həyətimizdə kivi də yetişdiririk.

Təcrübəli sahibkar ötən il qazandığı uğurlardan da danışır: – Ötən il 50 ton kartof, 200 tondan çox kələm əldə etdim. Bu il isə 3 hektar yarım sahədə kələm əkmişəm, 200 tondan çox məhsul əldə etməyi gözləyirəm. Hazırda təsərrüfatımızda 18-22 nəfər işçi çalışır. Həyətyanı sahədə əkdiyimiz kələmi isə artıq bazara çıxarmışıq.



Muxtar respublikada kənd təsərrüfatı ilə bağlı daha bir yenilik edib Ziyad Kərimov. Belə ki, sahibkar artıq qırmızı kələmin istehsalı və bazara çıxarılması ilə də məşğuldur: – Qırmızı kələmin salat, turşu üçün əhəmiyyətini nəzərə alaraq təsərrüfatımda ötən ildən qırmızı kələm yetişdirməyə başlamışam.

– Üstüpü kələmi muxtar respublikamızda adla tanınır, onu digərlərindən fərqləndirən nədir? sualımın cavabında müsahibim deyir: – Üstüpü kələmi daha kövrək olur. Kələm daha çox şehi, sərini sevir. Ümumiyyətlə, Üstüpünün torpağı kələm üçün münbit, əlverişli torpaqdır. Bu torpağın tərkibində mineral gübrələr çox olduğu üçün kələm yaxşı yetişir. Bir neçə il bundan əvvəl kələm əkdiyimiz ərazinin torpağını aparıb analiz edildə və məlum olub ki, onun tərkibində 900 adda mineral gübrə vardır. Yəni bu kələmin gübrəyə ehtiyacı yoxdur. Lakin üzvi gübrələrdən də istifadə edirik.

“Ziyadın kələmi Ordubadda adıyla tanınır”, – deyə təvazökarlıqla gülümsəyir müsahibim: – Ən üstün cəhətimiz odur ki, kələmin istehsalı ilə bağlı dərman preparatlarından istifadə etmirik.

Kələmi becərmə üsullarından danışan təsərrüfatçı deyir: – Kələmi becərmək üçün bütün aqrotexniki qaydalara riayət edirik. Vaxtlıvaxtında karını vurur, suvarırıq. Həmçinin qurd düşməməsi, su vurmaması üçün normal qidalandırırıq. Kənddə çox adam həyətyanı sahədə əkdiyi üçün şitili də elə orda becərir. Lakin mən yüz minlərlə kələm əkdiyim üçün şitili Kürdəxanı qəsəbəsində parnik sistemində yetişdirtdirib, oradan gətirirəm. Hava şərtlərinə görə burada yetişdirmək şansımız azdır.

Ziyad Kərimov qeyd edir ki, bir təsərrüfatçı-sahibkar kimi dövlət qayğısı ilə əhatə olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2019-cu il 26 dekabr Sərəncamı ilə “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilib. O, əməyinə verilən dəyərə, fəaliyyətinə göstərilən diqqətə, qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlıq etdi.



Qeyd edim ki, kələm bol miqdarda B, C və E vitaminləri, kalsium, kalium, dəmir, sink, fosfor, yod kimi mineral maddələrlə zəngindir. Həmçinin şəkər, revmatizm və digər xəstəliklər üçün də faydalıdır. Kələm milli mətbəximizdə çox istifadə olunan məhsullardan biridir. Ondan hazırlanan dolma, borş, qovurma, çığırtma, kotlet kimi yeməklər, müxtəlif salatlar, turşular ilboyu ağız ləzzəti ilə yeyilir. Beləliklə, bərəkətli torpaqlarımızda yetişdirilən kələm və ondan hazırlanan məhsullar yerli bazarı təmin etməklə, əhalinin faydalı və ekoloji sağlam məhsula tələbatının ödənilməsində başlıca rol oynayır, onu yetişdirən insanların büdcəsinə gəlir gətirməklə gün-güzəranlarını yaxşılaşdırır.

✍ Güntac ŞAHMƏMMƏDLİ

## Yeni bağlar salınıb

Ekoloji tarazlığın qorunmasında yaşıllaşdırma tədbirləri böyük əhəmiyyətə malikdir. Bu ilin ötən ayları ərzində Ordubad rayonunda yaşıllaşdırma tədbirləri davam etdirilib, mövcud yaşıllıqların qorunub saxlanılması üçün zəruri tədbirlər həyata keçirilib.



Belə ki, cari ilin yazında ekoloji tədbirlər çərçivəsində rayon ərazisində 7,1 hektar yeni bağ salınıb, 7,5 hektar sahədə bərpa işləri həyata keçirilib, sahələrdə 6125 meyvə, 725 meşə, 10 həmişəyaşıl ağacı tingi, 11800 gül və bəzək kolları əkilib. Həmçinin bağ və yaşıllıq zolaqlarına aqrotexniki qulluq göstərilib, ağacların qurumuş budaqları kəsilərək götürülüb, sahələr qrafik əsasında suvarılıb. O da qeyd olunmalıdır ki, rayon ərazisində salınan meyvə bağlarından son aylar 1800 kiloqram meyvə yığılaraq Ordubad rayonunda yerləşən sərhəd komendantlığına, 3930 kiloqram meyvə isə Əlahiddə Ümumqoşun Orduya təhvil verilib. Hazırda meyvə bağlarının suvarılması işi tərtib olunmuş qrafik əsasında həyata keçirilir.

Bahar ƏLİYEVA

*Min il keçmişə qayıtmadan dünyanın sirlərinə şahid olmaq istəyənlər Naxçıvandakı təbiət möcüzəsi Duzdağın ecazkarlığını gördükdə gözəllik və saflığı uzaqlarda deyil, elə buradaca tapdığına bir daha inanırlar. Milyon illər əvvəl baş vermiş mürəkkəb geoloji prosesləri üzbəüz yaxından izləmək imkanı yaradan və bugünkü müalicə imkanları ilə insanların itirilmiş sağlamlığına yenidən qovuşduran Naxçıvan Duzdağı yer altındakı sehrli otaqları ilə on minlərin yenidən ziyarət etmək istədiyi unikal məkanlardan biridir.*



# Naxçıvan Duzdağı

## Yeraltı xəzinənin sehrli dünyası

Duzdağ bizim tariximizdir. "Nuh tufanı" əfsanəsi qədər qədim yaşı olan Naxçıvanda insanları heyrətləndirən çox sayda yer, məkan, təbiət hadisəsi, landşaft quruluşu və tarixi hadisə izləri vardır. Bu qədər geniş bir ərazidə nədən məğrur Haçadağın tənha zirvə kimi boy göstərdiyi turistlərdə sual doğurduğu kimi Naxçıvan şəhəri kimi yamyaşıl bir ərazidən cəmisi 10-15 kilometr məsafədə özünün duz dünyasını yaşayan dağların necə formalaşdırdığı da elit turistlərdə eyni marağı doğurmaqdadır. Şükür ki, hər yerdə olduğu kimi, istər yerli, istərsə də əcnəbi olsun, artıq elit, hər şeyə ciddi, elmi və məntiqi maraq göstərən turistlərin sayı da hər keçən gün artmaqdadır. İndi hər bir turist yüz milyon tona çatan duz rezervi olan Naxçıvan Duzdağındakı duz təbəqələrini görüb buradakı geoloji eraların yaşı, səbəbi





haqqında sanki muzey ekspozisiyasındakı kimi əyani təsəvvür qazanır. Duzun bir zamanlar ən qiymətli ticari predmet olduğunu, qədim İpək Yolu üzərində Naxçıvan duzunun haralara qədər ixrac olunduğunu öyrənənlər isə bu bilgilərini daha da dərinləşdirirlər. Eneolit, yəni eradan əvvəl VI-IV minilliklər dövründən başlayaraq duz mədənçiliyinin əsası qoyulmuş Naxçıvanda 5 min illik şəhər mədəniyyətinin formalaşması kimi tarixi faktlar da diqqəti cəlb edir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə 2017-ci ildə Duz Muzeyinin yaradılması və 2019-cu ildə Duzdağ Fizioterapiya Mərkəzinin 40 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması bu mühüm mərkəzin müalicə və həm də tarixi əhəmiyyətini ortaya qoyan başlıca səbəblər olmuşdur.

Naxçıvan duzu çox təmizdir. Qrenlandiyanın buzlaqlarındakı saf su qədər təmiz olan Naxçıvan duzu formalaşdığı zaman dünyada nə tullantılı sənaye, nə də təbiət düşmənləri olan indiki odlu silahlar olmayıb. Bu səbəbdən də Naxçıvan duzunu əldə edib mətbəxində işlədən hər bir insan bir də Duzdağda olarkən hansı xəzinədən istifadə etdiyini bir daha görür. Naxçıvanda duz emalı üçün yaradılmış müasir şərait, burada istehsal olunan müxtəlif çeşidli duz öz alıcısına çatana qədər bu təmizliyi və saflığı qoruyub saxlamağa imkan yaradır. Bu isə çox vacib məqamdır, belə ki, insan qanındakı cəmi 1 faizə çatan duz kütləsinin nə qədər həyati əhəmiyyətə malik olduğunu isə indiki məktəbyaşlı uşaqlar da bilirlər.

Naxçıvan duzu insanlara ciyər dolusu rahat nəfəs də qazandırır. Dünyada, xüsusən rütubətli bölgələrdə yaşayan çox sayda insanın əziyyət çəkdiyi astma xəstəliyinin speleoterapiya, yəni duz mağarasında təbii üsullarla müalicəsi müasir tibbin mühüm nailiyyətlərindəndir. Planetdə insan sayının artması və bir çox yerlərdə hava-iqlim şəraitinin ağırlaşması ilə astma xəstəliyinin də yayılması bu müalicə növünə olan marağı artırır. Ona görə də ölkəmizin təbii sərvətləri arasında mühüm yer tutan Naxçıvandakı daşduz mağaraları əsasında astma xəstəliyinin müalicəsi həm tibbi-bioloji, həm də humanitar əhəmiyyətinə görə olduqca diqqətçəkəndir. Hər il 4 minə yaxın pasiyentin müalicə olunduğu Duzdağ Fizioterapiya Mərkəzinə müraciət edənlərin sayı artmaqdadır. Belə ki, Naxçıvan Duzdağının coğrafi yerləşmə mövqeyi, buradakı duz ehtiyatlarının həcmi və tətbiq olunan müalicənin keyfiyyəti dünyadakı analoqlarından fərqlidir. Buranın dəniz səviyyəsindən yüksəkliyi, şaxtalardakı mövcud hava şəraiti, temperatur, rütubət, atmosfer təzyiqi və oksigenin faizlə miqdarı, bakterioloji tərkibi astma və allergiyadan əziyyət çəkən xəstələrin müalicəsinin ideal nəticələr verməsinə şərait yaradır. İnsanların dərinliyə enmədən birbaşa 300 metrədək uzanan duz şaxtasına heç bir qorxu olmadan daxil olması, il ərzində buradakı havanın 18-20 dərəcədə sabit temperaturu, zəhərli qazların son dərəcə minimum səviyyəsi duz müalicəsinin effektini artıran əsas amillərdəndir. Müalicə nəticələri isə astmadan əziyyət çəkən pasiyentlər üçün olduqca sevindiricidir. Şübhəsiz, son dövrlər yaradılan müasir infrastruktur, yaxınlıqdakı beşulduzlu "Duzdağ" hoteli, Naxçıvan şəhərindən müntəzəm olaraq işləyən sərnişin avtobus xidmətləri, şaxtanın girəcəyində təklif olunan iaşə və hədiyyəlik əşya satışı, tibbi personalın müsbət fəaliyyəti istər müalicəyə gələnlər, istərsə də onları müşayiət edənlər üçün hər cür imkanlar yaradır. Ayrıca 2017-ci ildə Ali Məclis Sədrinin Sərəncamı ilə Duzdağ Fizioterapiya Mərkəzinə publik hüquqi şəxs statusu verilməsi burada göstərilən xidmətlərin keyfiyyətinə müsbət təsir edib. Odur ki, Duzdağ şaxtalarında duz havası ilə nəfəs alıb yenidən bol oksigenə qovuşa bilən insanlar üçün bura nağıllardakı sehrli aləmlərdən də möcüzəli, amma bir ovuc içi qədər əlçatandır.

Duz bizim brendimiz, ölkəmizin tanıtım markasıdır. Naxçıvanı dünyada tanıdan bir çox atributlar vardır. Amma Naxçıvan duzunun adı Naxçıvansız çəkilmədiyi kimi, Naxçıvan deyiləndə hökmən duz da yada düşür. Odur ki, duzun, əslində, bir brend olaraq qədim diyarımızı tanıdan dəyərli bir sərvət kimi formalaşması çox təbii bir proses olaraq davam etmiş, son illər muxtar respublikamızın hərtərəfli inkişafı, keçirilən mötəbər elmi tədbirlər və turizmin, xüsusən də müalicə turizminin inkişafı sahəsində görülən işlər Naxçıvan duzuna olan marağı da hər yerdə artırmışdır. Artıq statusundan, məqsədindən və yaxud Naxçıvanda qalma müddətindən asılı olmayaraq, diyarımıza səfər etmiş hər bir qonaq və ya turist hökmən bu duz möcüzəsi ilə tanış olmadan evinə qayıtmır, duzdan hazırlanmış hədiyyəlik əşyalara yaxınlarına suvenir seçir, növbəti səfərlərdə yenidən burada olmağı arzulayır.

Naxçıvan duzu bir sənət əsəridir. Naxçıvana səfər etmiş turistlərə ecazkar kristallik görünüşlü duz parçaları hədiyyə edərkən onların nə qədər heyrətləndiklərini gördükdə, əslində, bu yeraltı xəzinədəki hər bir duz parçasının bir sarı qızıl külçəsindən daha gözəl olduğuna inanmaq olur. Duzdağ şaxtalarının divarlarında yaratdığı ecazkar mənzərə isə ilk baxışdan əsrarəngiz rəsm əsərini xatırladır. Burada rast gəlinən harmonik duz mozaikası isə gözünü ağ-qara təsvirlərin bir-birinə diffuziya etdiyi qeyri-standart rəsm əsərlərinin gətirdiyi rahatlıqla doldurub, əsəblərini sakitləşdirmək istəyənlər üçün ideal məkandır. Odur ki, ömründə heç bir rəsm əsərinə maraq göstərməmiş, yaxud bir simfonik əsərə qulaq asmamış insan Duzdağa düşərsə onun üçün də bu sehrli otaqlarda kəşf ediləcək yeni aləmlər var.

Və Naxçıvan duzu bizim sənayemiz, diyarımızın iqtisadiyyatının gəlir mənbələrindən biridir. Doğrudur, hazırkı texnologiya dövründə duzun rəf qiyməti digər məhsullarla müqayisədə aşağı olsa da, amma Duzdağdakı qiyməti olduqca dəyərlidir. Naxçıvan duzunun sorağına gəlmiş hər bir insanın iqtisadiyyatdakı inteqral effektlə nəqliyyat, otel, restoran, elm, təhsil, mədəniyyət sahələrinə nə qədər təsir etdiyi, buradakı dinamikanı müsbət yönə necə dəyişdiyini göstərmək mümkündür. Ona görə də duz hasilatı, duz emalı sənayesinin inkişafı dedikdə bu dəyərli nemətin insan həyatında, onun fiziologiyasında, mətbəxində və mədəniyyətinin inkişafındakı rolunu nəzərə almaq, bu istiqamətdə yeni layihələr axtarışına çıxmaq haqqında da düşünmək lazımdır.

Bir qədim Vikinq əfsanəsində dənizlərin və okeanların duzla necə dolduğu haqqında danışılır. Rəvayətə görə, dəniz dibindəki sehrli əl dəyirmanı fırlandıqca onun boğazından çıxan duz da suya qarışıb dünyaya yayılır. Əfsanəyə inanan insanlar uzun illərboyu xörək duzunun mənşəyini məhz belə təsəvvür etsələr də, qəribədir ki, ötən əsrin 70-ci illərində edilmiş bir elmi kəşf məhz okean dərinliklərindəki mürəkkəb hidrotermal proseslər nəticəsində planetimizin dərinliklərindən qaynayıb üzə çıxan müxtəlif maddələr, o cümlədən xörək duzu, onun müalicəvi gücü haqqında ciddi arqumentlər irəli sürür. Beləcə, dünyadakı duz möcüzəsinə inananlar çoxaldıqca bu qiymətli təbii sərvətin şöhrəti də hər yerə yayılır.

*Naxçıvan Duzdağının sehrli gücü kimi.*

✍ **Əli CABBAROV**

# Teleradio jurnalistikasının inkişafı günün tələbidir

Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası tərəfindən 2022-ci ilin avqust ayında muxtar respublikada fəaliyyət göstərən teleradioların monitorinqi aparılmış, fəaliyyətləri təhlil edilmiş, müəyyən nöqsanlar qeydə alınmışdır. Müşahidə edilən çatışmazlıqlar dərhal teleradiolara bildirilmiş və aradan qaldırılması üçün tədbirlər görülmüşdür.

Hesabat dövründə Naxçıvan Televiziyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin iştirak etdiyi tədbirlərə həsr olunmuş 5 telematerial hazırlanmışdır.

Avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri Azərbaycan Ordusunun nəzarətinə keçməsi ilə bağlı möhtəşəm xəbər Naxçıvan Televiziyasında da operativ şəkildə izləyicilərin diqqətinə çatdırılmışdır.

Hesabat ayında verilişlərin növbəti 91 sayı efirə təqdim olunmuşdur. Televiziyada verilişlərin uğurlu alınması üçün əsas şərt mövzunun düzgün seçilməsidir. Bu baxımdan aktual məsələləri ümumi auditoriya üçün sadə və anlaşıqlı dildə təqdim edən "Mövzu bizik", "İqtisadiyyat", "Qanunçuluq" verilişləri yaddaqalan olmuşdur.

Avqust ayında təhsil profilli verilişlərdə operativlik nümayiş etdirilmiş, aparıcı hazırlığı müşahidə edilmişdir. "Uğur düsturu" verilişində orta ümumtəhsil məktəbləri şagirdlərinin və ali təhsil ocaqları tələbələrinin yeni STEAM layihələrindən bəhs edilmişdir.

"Təhsil və zaman" verilişində Azərbaycan Respublikası Prezidentinin 2022-ci il avqustun 18-də imzaladığı Fərmanla təhsil sahəsində çalışanların maaşlarına əlavələr edilməsi ilə bağlı diskussiya şəraitində müzakirələr aparılmış, tamaşaçılar tərəfindən sosial şəbəkələr vasitəsilə ünvanlanan suallar mütəxəssislər tərəfindən izah edilmişdir.

Hesabat dövründə, əsasən, müəllif proqramları və ədəbi-bədii profilli layihələr yayımlanmışdır. Ay ərzində iki sayı təqdim edilən "Zəhmətkeş" verilişi tərtibatı ilə diqqəti cəlb etmişdir. Həmçinin Babək rayonundan olan şəhidimiz Ümid Novruzludan bəhs edən "Vətən uğrunda" verilişi vətənpərvərlik hisslərinin aşılanması baxımından mühüm əhəmiyyət daşımaqdadır.

Naxçıvan Radiosu bəhs edilən dövrdə 487 saat efirdə olmuşdur. Bu dövrdə radioda verilişlərin sayında azalma müşahidə edilmiş, efirin əsasını konsert proqramları təşkil etmişdir. Ümumi efirin 38 faizi radionun öz istehsalı olan verilişlər, canlı proqramlar, xəbər buraxılışları, audioçarxlar, 62 faizi isə konsert proqramları və digər hazır materiallardan ibarət olmuşdur. Ümumilikdə, ay ərzində 90 veriliş və canlı proqram, 363 konsert proqramı təqdim edilmişdir. Həmin verilişlər muxtar respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında baş verən yeniliklər, ədəbi-bədii, xüsusi günlər, gənclik-idman, uşaqlar, təhsil, hüquqi maarifləndirmə və digər mövzularla bağlı olmuşdur.

"Kanal 35" televiziyasında avqust ayı ərzində muxtar respublikanın müxtəlif sahələrini əks etdirən videomaterialların yayımı davam etdirilmiş, bu mövzuda televiziyada 28 film efirə təqdim edilmişdir. Bu da ümumi efirin 6,9 faizini təşkil etmişdir. Televiziyada maarifləndirici və məlumatlandırıcı videomateriallarin yayımı istiqamətində avqust ayında 321 videomaterial efirə təqdim edilmişdir ki, bu da efirin 82,5 faizini təşkil etmişdir.

Bəhs edilən dövrdə "Naxçıvanın səsi" radiosu 487 saat efirdə olmuş və efir müddətinin 108 saatını canlı yayım proqramları təşkil etmişdir. Radioda ay ərzində "Salam, Naxçıvan", "Müzakirə vaxtı", "Şənbə söhbətləri", "Həyatın içindən", "Müəllimlər otağı", "Ailə və uşaq", "Gənc bizik" və "Şagirdlə efir vaxtı" adlı canlı verilişləri efirə yayımlanmışdır.

***Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurası***

# Milli Musiqi Günü münasibətilə silsilə tədbirlərə start verilib



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1995-ci ildə imzaladığı Fərmana əsasən Azərbaycanın görkəmli bəstəkarı, musiqişünas-alim, publisist, dramaturq, pedaqoq və ictimai xadim, müasir Azərbaycan peşəkar musiqi sənətinin və milli operasının banisi Üzeyir Hacıbəylinin anadan olmasının ildönümü hər il ölkəmizdə "Milli Musiqi Günü" kimi qeyd olunur. Bu əlamətdar gün münasibətilə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müvafiq tədbirlər planına əsasən Naxçıvan şəhərində və muxtar respublikanın rayonlarında, həmçinin uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur.

Bu münasibətlə dünən Ordubad Rayon Mədəniyyət Sarayında təşkil olunan tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı geniş konsert proqramı ilə çıxış edib. Bədii rəhbəri Azərbaycan Respublikasının Əməkdar artisti Zeynalabdın Babayev, baletmeysteri Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Tamerlan Bağırov, xormeysteri Prezident mükafatçısı İlhamə Şirəliyeva olan ansamblın çıxışı tamaşaçıların alqışları ilə qarşılanıb. Azərbaycan Respublikasının Xalq artisti Əzizağa Məmmədov, Azərbaycan Respublikasının Əməkdar artisti Vilayət İsmayılov, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Zülfiqar Mahmudov, Xatirə Səfərova, gənc ifaçılar Zamin Vəliyev və Nərmin Hüseynovanın, həmçinin rəqs qrupunun, xor kollektivinin ifaları iştirakçılara əsl bayram ab-havası bəxş edib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Naxçıvan Muxtar Respublikasının gölləri qiymətli təbii sərvətimizdir



*Naxçıvan Muxtar Respublikası ərazisində olan göllər təbiətin bu diyara bəxş etdiyi qiymətli təbii su hövzələridir. Ordubad rayonunun 3000-3500 metr yüksəkliyində başıqarlı dağlar, sıldırım qayalar arasında yerləşən gölləri öz sularında səmanın maviliyini əks etdirir. Şahbuz rayonunda dəniz səviyyəsindən, təxminən, 2500 metr yüksəklikdə, yaşıl çəmənlərin, qamış və nadir növ kolların yaşıl rənglərini ayna kimi əks etdirən suların durğun səthi mavi-yaşıl örpəyə bürünmüş su hövzələri yerləşir. Nisbətən aşağılarda düzənlik ərazilərin gölləri təbii mistik gözəllikləri, isti və şirin suları ilə ətraf ekosistemdə əsrarəngiz mənzərə yaradır.*

***Göygöl*** Ordubad rayonu ərazisində, Zəngəzur silsiləsinin cənub yamacında, 3065 metr yüksəklikdə yerləşir. Şirinsulu, axarlı gölün yay aylarında səthinin temperaturu 16-18 dərəcədir, qış aylarında tamamilə donur. Dəyişkən olan sahəsi qarlı illərdə artır, yağıntısız illərdə kiçilir. Suyu kimyəvi tərkibinə görə zəif minerallı, hidrokarbonatlı-natriumlu- kalsiumludur. Ətrafı sıldırım qayalarla əhatəlidir. Sahil xəttində bitki örtüyü zəif yayılsa da, nadir növlərə rast gəlmək olur. Kiçik Qafqaz dağları ilə əhatələnmiş Göygöl yerləşməsinə və bənzərsiz mənzərəsinə görə istirahət və turizm üçün əlverişlidir.

***Batabat gölü*** Azərbaycanın dağ gölləri kolleksiyasının şöhrət çələnginə sahibdir. Əsrarəngiz gözəlliyi olan bu mavi göl Şahbuz rayonunda, dəniz səviyyəsindən, təxminən, 2500 metr yüksəklikdə, Naxçıvan çayının mənbəyində yerləşir. Mənzərəli su hövzəsinin ərazisi baharda və yayda yaşıllığa və gül-çiçəyə bürünür. Gölün çox təmiz, şirin suyu var, onun səthində torf adası üzür və dünyada analoqu olmayan nadir təbiət abidəsini formalaşdırır. "Üzən ada"nın qoynundan qalxan duman axşamüstünün alacaqaranlığının al-qırmızı rənginə boyanıb mavi səmanın dərinliklərinə yön alır. Bu möhtəşəm mənzərəni görmək üçün gölün sahilində Günəşin batmasını seyr etməyə dəyər. Bu yerlərin subtropik, qışda yumşaq qarlı və yayda sərin quru iqlimi istirahət üçün ideal şərait yaradır. Gölün ətrafındakı kurort zonası çoxsaylı mineral bulaqlarla zəngindir. Ərazi nadir dərman bitkiləri ilə zəngin olduğundan, həm də təmiz suyu və havası hesabına gələcəkdə turist bazası və filoterapiya mərkəzinin yaradılması mümkündür.

Muxtar respublika ərazisindəki göllərin yaşı ərazilərdə buzlaqların əriməsi ilə eyni dövrə təsadüf edir. Geoloji hesablamalara görə, burada minilliklər çox da böyük fərq deyil. Tektonik mənşəli göllər yerin dərin qatlarında böyük sahələrin geoloji hərəkəti nəticəsində əmələ gəlmişdir. Vulkanik mənşəli göllərdən fərqli olaraq muxtar respublika ərazisindəki əksər göllər dağlarda və vadilərdə buzların əriməsi nəticəsində, ətraf çay və yeraltı sulardan qidalanan soyuq və şirin su kütlələrinin toplanmasının məhsuludur. Göllərdə baş verən hadisələr landşaftdan və yerləşdikləri iqlim zonasından asılıdır. Göl hövzələrinin ətrafındakı dağ süxurları geokimyəvi fon yaradaraq göllərin sularının mineral tərkibini formalaşdırır. Göl sularının mineral və üzvi tərkibi ətrafdakı təsərrüfat fəaliyyətləri, torpaq örtüyünün pozulma prosesləri, meşə örtüyünün azalması, tullantıların miqdarının artması, insanların antropogen təsirlərindən də ziyan görür. Suların keyfiyyəti, öz növbəsində, göllərdə yaşayan mikroorqanizmlərin, bitki və heyvanların keyfiyyət və kəmiyyət tərkibinə də təsir göstərir. Beləliklə, göllər yalnız xəritədə görünən su hövzələrinin kiçicik mavi sahəsi deyil, müxtəlif kompleks funksiyalarını daim dəyişən təbii hidrocoğrafi halqanın qapalı su sistemləridir. Göllərin yaşamı yarandığı andan təbii təkamülü uzun bir proses olub, su hövzəsinə dib çöküntülərinin yığılması, dayazlaşması, su bitkiləri ilə örtülməsi, bəzən "çiçəklənməsi" və tədricən, bataqlığa çevrilməsi ilə başa çatır. Bu proses təbii sistemlərin akkumulyatorları kimi göllərin su mübadiləsinin zəifləməsi ilə izah olunur. Təbiətin nadir inciləri olan göl hövzələrinin və gölətrafı ərazilərin ekosisteminin qorunması onların su mübadiləsinin tənzimlənməsinə zəmin yaradır.





Muxtar respublika ərazisindəki göllərdə su kütləsinin dadı şirin sulara yaxın olub, minerallaşma dərəcəsindən asılı olaraq dəyişilir. Beləliklə, tədqiq olunan göllərdə su kütləsinin işıq şüalarını keçirmə qabiliyyəti fotosintez zonasının dərinliyindən və suyun temperaturundan asılı olaraq göllərdəki bioloji proseslərin intensivliyini tənzimləyir. Göl sularının fiziki göstəricilərini əks etdirən bu xassələr, öz növbəsində, göllərin ekoloji xüsusiyyətlərinin formalaşmasına şərait yaradır.

Kimyəvi analizin nəticələrinə görə, göl sularında qələvi metallar üstünlük təşkil etsə də, dib çöküntülərində onların miqdarı cüzidir. Dib çöküntülərində kalsium həm yüngül fraksiyalarda kalsium-karbonat şəklində, həm də ion şəklində mövcud olduğundan onun miqdarı çox olur. Dib çöküntülərinin yüngül fraksiyasında çöl şpatı, kvars və gil hissəcikləri də mövcuddur. Göllərin dib çöküntülərində tədqiq edilən elementlərin müəyyən qədər normadan artıq olması mühitdə baş verən geokimyəvi dəyişmələr, antropogen axıntıların və qrunt sularının göllərə daxil olması ilə əlaqəli olub, göllərin şirin su qidasının azalmasına, duzlu və nisbətən duzlu suların formalaşmasına, təbii rejimin pozulmasına və göllərin qocalmasına səbəb olur. Minerallaşmasına görə göllər şirin, ultraşirin, mineral (duzlu), duzlutəhər və ifrat duzlu növlərə ayrılır. Muxtar respublika ərazisindəki göllər mineral göllər növünə aiddir. Bu göllər, öz növbəsində, kimyəvi tərkibinə görə karbonatlı, sulfatlı və xloridli (duzlu) qruplara ayrılır. Kimyəvi tərkibinə görə Göygöl və Salvartı gölləri zəif xloridli, Batabat və Qanlı göl karbonatlı göllər qrupuna aiddir. Hazırda göllər və onları qidalandıran su hövzələrinin (çaylar, yeraltı sular) məruz qaldıqları antropogen yükün əhəmiyyətli dərəcədə azaldılmasına, ekosistemin uzaq keçmişdəki ilkin vəziyyətinə qaytarılmasının tədricən bərpa edilməsinə, ilk növbədə, göllərin özünütəmizləmə qabiliyyətinin artmasına nail olmaq lazımdır.

Muxtar respublika ərazisindəki göllərdə təbii rejimin tənzimlənməsi üçün antropogen axıntıların miqdarı və göllərin ekoloji tarazlığı, onların sağlamlaşdırılması və daha səmərəli istifadəsi üçün müəyyən tədbirlər görülür. Göllər yeraltı suların təlatümlərinin yer üzərindəki ən gözəl təzahürüdür. Ayaqlarımız altında qaynayan okeanın sularını səxavətlə yer səthinə çıxarıb biosferə bəxş edən ana təbiət sanki yeraltı dünyanın dərinliklərindəki zəlzələ və vulkanların şıltaqlıqlarını axarsız, lal sükutlu göllərlə sakitləşdirmişdir. Okean və dənizlərə çıxışları olmasa da, hidrosferdə xüsusi çəkisi və yeri olan göl və sututarlar muxtar respublikanın su balansında böyük əhəmiyyətə malikdir. Muxtar respublika ərazisindəki göllər və onların ətrafı ekoturizm infrastrukturuna və ideal şəraitə malik olduğundan, burada yerli əhalinin, habelə turistlərin səmərəli istirahətini təmin etmək olar.

**Fizzə MƏMMƏDOVA**
***AMEA Naxçıvan Bölməsi Təbii Ehtiyatlar İnstitutunun Hidrogeologiya və mineral sular laboratoriyasının müdiri, dosent***

# Şəhərimizdə təşkil edilən məktəbli yarmarkası alıcılarda xoş təəssürat yaradıb

*Yeni tədris ilinin başlanmasına az müddət qalır. Bütün məktəblilər, eləcə də müəllimlər səbirsizliklə 15 sentyabr – Bilik Gününü ən gözəl şəkildə qarşılamağa çalışırlar. Hər il olduğu kimi, bu il də muxtar respublikamızda təşkil olunan ənənəvi məktəbli yarmarkaları alıcıların zövqünə və büdcələrinə uyğun ən gözəl məhsulları satışa çıxarıb. Artıq fəaliyyətə başlayan bu yarmarkalar vasitəsilə bütün məktəbli ləvazimatlarını, eyni zamanda məktəbli formalarını və müəllimlər üçün vəsaitləri də bir mərkəzdən əldə etmək mümkündür. Yarmarkalarda ilk gündən etibarən çoxlu müəllim, tələbə və valideynə xidmət göstərir.*

Qeyd edək ki, məhsul çeşidinin çox olması alıcılara geniş seçim imkanı yaradır. Burada müştərilərə keyfiyyətli və münasib qiymətə məktəbli ləvazimatları, o cümlədən məktəbli geyimləri, idman formaları və ayaqqabılar təklif olunur. Ayrı-ayrı fənlər üzrə əyani dərs vəsaitləri, lüğət, dünya uşaq ədəbiyyatı nümunələri, bədii və elmi ədəbiyyatları da buradan əldə etmək mümkündür. Bir daha diqqətə çatdıraq ki, sentyabr ayının 1-dən 14-dək fəaliyyət göstərəcək yarmarkaların əsas məqsədi yeni tədris ilinə hazırlaşarkən şagirdlərin məktəbli ləvazimatlarına olan tələbatlarını daha sərfəli qiymətə və rahat şəkildə təmin etməkdir. Biz də şəraitlə yaxından tanış olmaq üçün yolumuzu Naxçıvan şəhərindəki Mərkəzi Bazarda təşkil olunan məktəbli yarmarkasından saldıq, həm alıcıların, həm də satıcıların təəssüratlarını öyrəndik.

İlk müsahibimiz şəhər sakini ***Sevinc Əliyeva*** yarmarka haqqında öz təəssüratlarını bölüşərək dedi: "Artıq bir neçə ildir ki, yarmarkada iştirak edirəm, övladlarımın bütün məktəbli ləvazimatlarını yarmarkadan alırıq. Çünki yarmarkaya çıxarılan məhsulların keyfiyyətindən və sərfəli qiymətindən razıyıq. Çeşid də çox olduğu üçün övladlarımız özləri seçim edirlər. Eyni zamanda yalnız ləvazimatlar deyil, geyimləri də buradan alırıq. İstənilən ölçüdə geyimi buradan əldə etmək mümkündür."



Naxçıvan şəhər sakini ***Ceyran Nəbiyeva*** da yarmarkadakı münasib qiymətlərdən və keyfiyyətli məhsullardan razılığını bildirərək qeyd etdi ki, o, bir neçə ildir, övladlarının məktəbli ləvazimatlarını yarmarkadan əldə edir: – Məlumdur ki, hər il Bilik Günü ərəfəsində istər şagirdlərin, istərsə də valideynlərin, necə deyərlər, ən qayğılı günləri başlayır. Belə bir zamanda məktəb üçün lazım olan bütün ləvazimatları bir ünvanda əldə etmək həm zaman, həm də qiymət baxımından çox əlverişlidir.

Yarmarkaya məhsul çıxaran satıcılar da belə tədbirlərin təşkilindən razılıqla danışırlar. Onlardan biri – ***Əli Əliyev*** yarmarkanın fəaliyyətindən söhbət edir: "Yarmarkamız sentyabr ayının 14-dək saat $9^{00}$-dan $14^{00}$-dək hər gün fəaliyyət göstərəcəkdir. Əsas hədəfimiz məktəbliləri lazımi məhsullarla daha səmərəli və keyfiyyətli şəkildə təmin etməkdir. Ötən illərə nəzər salsaq, bu il satışa çıxarılan məhsulların çeşidi bol, qiyməti isə daha münasibdir. Qeyd etmək lazımdır ki, alıcılar münasib qiyməti dəyərləndirərək ləvazimatları sayla deyil, paket halında alırlar. Bu da alıcı məmnuniyyəti deməkdir. Onu da qeyd etmək lazımdır ki, istər müəllimlər, istərsə də şagirdlər üçün ən yeni dərs ləvazimatlarının da satışı həyata keçirilir.



Məlumat üçün bildirək ki, muxtar respublikada məktəbli geyimləri, idman formaları istehsal edən yüngül sənaye müəssisələrinin keyfiyyətli məhsulları yarmarkada satışa çıxarılıb. Bunlar həm keyfiyyətinə, həm də qiymətinə görə valideynlərin rahatlıqla aldığı məhsullardır".

Yarmarkaya gəlmiş müəllimlərlə də həmsöhbət oluruq. Naxçıvan şəhər 1 nömrəli tam orta məktəbin müəllimi ***Ceyran Məmmədova*** söhbət zamanı dedi: "Muxtar respublikada yeni dərs ili ilə əlaqədar olaraq təşkil olunmuş ənənəvi məktəbli yarmarkası şagird və müəllimlərin lazımi dərs ləvazimatları ilə təmin olunması baxımından xeyli əhəmiyyətlidir. Təbii ki, bütün məhsulların bir yerdə və ən əhəmiyyətlisi münasib qiymətə satışa çıxarılması, ləvazimatların asan və rahat əldə olunması valideyn və müəllimlərin ürəyincədir. İstənilən ləvazimatları bir ünvandan ala bilirik. Onu da qeyd edim ki, Təhsil Nazirliyi tərəfindən hazırlanmış müəllim üçün gündəlik dərs planları, icmallar, illik planlaşdırma üçün hazır materiallar, sinif rəhbərinin iş planı kimi ləvazimatları burada sərfəli qiymətə satırlar. Liseylər və ümumtəhsil məktəbləri üçün tikilmiş məktəbli geyimlərini valideynlər buradan əldə edə bilər. Bir sözlə, bütün lazımi məhsulları eyni yerdən asan və rahat şəkildə əldə etmək bizim üçün əlverişlidir".

Ümumilikdə, satış yerlərinin hər birində məhsulların çeşid zənginliyi, qiymətlərinin əlverişli olması və xidmətin təşkili alıcılar tərəfindən razılıqla qarşılanır. Bir daha qeyd etmək lazımdır ki, yarmarka muxtar respublikanın bütün bölgələrində fəaliyyət göstərir və sentyabrın 14-dək davam edəcək.

**Bülbül QULİYEVA**
**Aysel YUSİFZADƏ**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisasının tələbələri***

## İtmişdir

Abbasova Samirə Rəhman qızının adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Aşağı Buzqov kəndində yaşamış Şəkərov Tofiq Məmmədhənifə oğlunun adına olan JN-$145^A$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair" şəhadətnamə, həmin torpaq sahəsinin üzərində olan fərdi yaşayış evinin sənədi itdiyindən etibarsız sayılır.

***

Əlisoy Neman Yasin oğlunun adına olan avtomobilin 75 BD 610 dövlət nömrə nişanı itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Gömür kəndində yaşayan Babayev Çingiz Məhəbbət oğlunun adına verilmiş 26 may 2017-ci il tarixli, A 016539 inventar nömrəli torpaq sahəsinin planı və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Şahbuz rayonu, Şahbuzkənddə yaşayan Quliyev Elşən Surxay oğlunun adına verilmiş JN $240^A$ və JN $240^B$ nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə"lər itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Məcid Əkbərov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 782